*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 2*
*Səhifə: 254-258* *ISSN: 2663-4406*

**UOT:** 821.512.162(091)

Lətifə Mirzəyeva*

# XIX ƏSRİN TALESİZ ŞAİRİ

***Xülasə***

XIX əsrin görkəmli şəxsiyyəti – şair, ədib, alim, həkim, Məhəmməd Hidəcinin maarifçilik ideyalarının təbliğində də böyük rolu vardır. O, 1879-1887-ci illərdə Qəzvin və Tehran şəhərlərində sərf, nəhv, məntiq, məani, bəyan, riyazi və hikmət elmlərini öyrənmişdir.

Hidəci haqqında ilk məlumat Hacı Mirmustafa Lənkəraninin 1918-ci ildə Hacı Mirzə Səlimə göndərdiyi məktubundan, ikinci məlumat isə görkəmli tədqiqatçı Salman Mümtazın 1927-ci ildə nəşr etdirdiyi «Azərbaycan ədəbiyyatı» (El şairləri) kitabından alınmışdır. Hidəcinin yaradıcılığından ilk dəfə professor Cəfər Xəndan söz açmışdır.

Hidəcinin ədəbi irsi «Danişnamə» poeması, «Divan» və həkim Səbzvarinin «Şəhri mənzum» əsərinə yazdığı «Təliqə»sidir. Gəncliyində «Müğənni», sonralar «Hidəci» təxəllüsü işlətmiş şair Azərbaycan, ərəb və fars dillərində şeir, poema, fəlsəfi, ictimai və dini əsərlər yazmış, öyüd, nəsihət, təmsil, mənzum hekayə kimi bədii parçalara müraciət etmişdir.

Xalqın dərdlərini ustalıqla ümumiləşdirən şair onları yalnız təsvir etməklə kifayətlənməmiş, həm də etiraz səsini ucaltmışdır. Şairin lirikası ədalətsizliyin və riyakarlığın tənqidi, insanı saflaşdıran məhəbbətin tərənnümüdür. Dini əxlaqın tərənnümü də onun bir çox əsərlərində mühüm yer tutur.

Xalq həyatını incəliklərinə qədər təsvir edən Hidəci yalnız Cənubi Azərbaycanda deyil, bütün İranda tanınmışdır.

**Açar sözlər:** “Divan”, nəşr, ədəbi irs, ideya, öyüd, nəsihət, vəsiyyətnamə

## UNFORTUNATE POET OF THE XIX CENTURY

***Summary***

Outstanding personality of the XIX century – poet, writer, scientist, doctor – Mahammad Hideji has a great role in the promoting of awareness ideas. In 1879-1987, he studied serf, nehv, logic, meani, beyan, mathematics, and philosophy in Qazvin and Tehran.

The first information about Hideji was taken from the letter which was sent to Mirza Salim by Haji Mirmustafa Lenkarani in 1918, and the second information from the book “Azerbaijani literature” (Public poets) published in 1927 by prominent researcher Salman Mumtaz. First, Professor Jafar Khandan dealt with Hideji’s creativity.

Literary heritage of Hideji consists of the poem “Danishname”, “Divan” and his “Letter” that written to the work “Shehri menzum” by doctor Sebzvari. In his youth, the poet who used pen-name“Mugenni” (Singer) and then “Hideji”, wrote poems, philosophical, religious and social works as well as edification, fables and poetical stories in Azerbaijani, Arabian and Persian.

The poet, summarizing people’s troubles of Southern Azerbaijan masterly did not suffice to describe them, protested for it as well. Poet’s lyric is criticism of hypocrisy and injustice, praise of love. Praise of morality takes an important place in his works. Hideji described people’s life is known not only in Southern Azerbaijan, but also in whole Iran.

**Key words:** “Divan”, prose, literary heritage, idea, edification, admonition, testament

* Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu.

**ОБЕЗДОЛЕННЫЙ ПОЭТ XIX ВЕКА**

***Резюме***

Большая роль в распространении просветительских идей принадлежит выдающейся личности XIX века – поэту, литератору, учёному, врачу Мохаммеду Хидачи. В 1879-1887 годах он изучал морфологию, синтаксис, логику, риторику, математику, софистику в Газвине и Тегеране.

Первые сведения о Хидачи получены из сообщения Гаджи Мирмустафы Лянкарани в его письме к Гаджи Мирзе Салиму в 1918 году. Второе сообщалось в изданной в 1927 году известным исследователем Салманом Мумтазом книге «Азербайджанская литература (Народные поэты)». С творчеством Хидачи впервые ознакомил профессор Джафар Хандан.

Литературное творчество Хидачи составляют поэма «Данешнаме», «Диван» и «Послание», написанное к произведению врача Сабзвари «Стихотворение городу». Используя в молодости псевдонимы «Певец», затем «Хидачи», поэт создавал стихи, поэмы, философские, социальные и религиозные произведения на арабском и фарсидском языках, обращался к стихотворным видам художественных жанров – поучений, наставлений, басни, рассказов.

Поэт не только правдиво изображал тяготы народной жизни в Южном Азербайджане, но и внёс свой голос против этого явления. Лирика поэта заключает в себе критику несправедливости и коварства, воспевает любовь, возвышающую человека. Во многих его произведениях значительное место занимает также воспевание нравственности религии.

Детально изображающий народную жизнь, Хидачи общепризнанный поэт не только в Южном Азербайджане, но и во всём Иране.

**Ключевые слова:** «Диван», издание, литературное наследие, идея, поучение, наставление, завещание

**Giriş.** XIX əsr Azərbaycan ədəbiyyatında böyük yer tutan, mövzu dairəsini bütün yaradıcılığı boyu yeni motivlərlə zənginləşdirən, formada yeniliklər yaradan qüdrətli şair Məhəmməd Məsuməli oğlu Hidəci 1853-cü ildə Xəmsə vilayəti Əbhər rayonunun Hidəc kəndində anadan olmuşdur.

Beş böyük rayonu əhatə edən Xəmsə vilayəti Cənubi Azərbaycanın Şərq hissəsində yerləşir. Vilayətdən vaxtilə bir çox alim, şair, filosof, məşhur dövlət xadimləri çıxmışdır. İranın hakim dairələri böyük nüfuza malik olan bu vilayəti əhalisinin dil, ədəbiyyat, milli ənənə, ərazi birliyinə baxmayaraq, onu Azərbaycan əyalətindən ayrı saxlamışlar. Ancaq tarixi faktlar və Məhəmməd Hidəci kimi xalq içərisindən çıxmış şair, yazıçı və xalq aşıqları bu xalqın azərbaycanlı olduğunu öz əsərlərində təsdiq etmişlər.

M.Hidəci ilk təhsilini Hidəc kənd məktəbində almışdır. 1879-1887-ci illərdə Qəzvin və Tehran şəhərlərində oxumuş, Qəzvində sərf, nəhv, məntiq, məani və bəyan kimi elmləri öyrənmiş, Tehranda dövrün məşhur ustad və müəllimlərindən riyazi və hikmət elmlərini mənimsəmişdir. O, 1887-ci ildə müctəhid (şiə aləmində dini qanunları, ehkamları təfsir və şərh edən baş ruhani) təhsili almaq üçün Nəcəf şəhərinə gedərkən Cəbəül-hümreyi adlanan yerdə quldurlar karvanı soymuş, hamı kimi onun da malları talan edilmişdir. Talan edilmiş mallar içərisində şairin "Divan"ı və əlyazmaları da olmuşdur. Özü bu barədə yazır:

*Mən yazardım neçə müddət din və daneş dəftərini,*
*Din və imanı apardı oğru "Divan"ım kimi.*

Sonradan şair çox çətinliklə "Divan"ın yalnız bir hissəsini bərpa edə bilmişdir.

"Hidəcidən ilk məlumat Hacı Mirmustafa Lənkəraninin 1918-ci ildə Hacı Mirzə Səlim adlı şəxsə göndərdiyi məktubundan alınmışdır. Məktubda deyilir: "Dənizlər qədər elmi olan, alimlərin başçısı və zəmanə ariflərinin seçilmişi Məhəmməd Hidəci Zəncaninin şeirləridir ki, Hacı Mirzə Səlimin xahişi ilə tələsik yazılmışdır" [1, s.23].

Hidəcidən ikinci məlumat görkəmli tədqiqatçı Salman Mümtazın 1927-ci ildə nəşr etdirdiyi "Azərbaycan ədəbiyyatı" (El şairləri) kitabında verilmişdir. Burada zəncanlı Molla Məhəmməd

Hidəci adı ilə şairin iki qəzəli – "Ey dost, mən buyurduğuna qoymuşam boyun", "Bəh baharın yenə gəldi yelinin həmhəməsi" və "Xam Sevda" adlı bir şeiri dərc edilmişdir. İlk dəfə professor Cəfər Xəndan M.Hidəcinin yaradıcılığından söz açmış, 1971-ci ildə isə S.B.Bağırzadə şairin haqqında namizədlik dissertasiyası yazmışdır.

M.Hidəcinin ədəbi irsi "Danişnamə" poeması, "Divan" və həkim Səbzvarinin "Şəhri-mənzum" əsərinə yazdığı "Təliqə"sidir. Əsərləri nisbətən gec yayılmışdır.

"Şairin "Divan"ı ilk dəfə 1938-ci ildə Təbrizdə Seyid Cəlal Musəvi Müztərinin tərtibatı, müqəddiməsi, müəllifin qısa tərcümeyi-halı və "Vəsiyyətnamə"sinin surəti ilə birlikdə "Azərbaycan kitab çapı şirkəti" tərəfindən nəşr edilmişdir. Bu nüsxə həmin müəssisə tərəfindən ikinci dəfə çap olunmuşdur. Həmin "Divan" 1958-ci ildə Hidəcinin əlavə edilmiş bir çox nəzm və nəsr əsərləri ilə birlikdə yenə Müztərinin tərtibatı və eyni müqəddiməsi ilə Təbriz şəhərində "Kitabfürusi-həqiqət" tərəfindən nəşr edilmişdir. Bu nüsxə Təbrizdə çap edilmiş nüsxələrin ən mükəmməli hesab olunur.

Hidəcinin əsərləri iki dəfə Zəncan şəhərində "Qeysəriyyə" mətbəəsində Əli Nəştrudinin tərtibatı, müqəddiməsi müəllifin nisbətən geniş tərcümeyi-halı və "Vəsiyyətnamə"si ilə birlikdə "Külliyyatı-divani Hidəci" adı ilə "Kitabfürusin-Ələviyyun" tərəfindən nəşr edilmişdir.

Həştrudi Hidəcinin əsərlərini sayarkən Nəsrəddin şah səltənəti dövründə baş vermiş məşhur "Duxaniyyə" hadisəsi (Məşhur Tənbəki üsyanı) haqqında onun bir risalə yazdığını və həmin risalənin dərhal nəşr olunduğunu da qeyd etmişdir" [1, s.26-27].

M.Hidəci 1892-ci ildə Nəcəfdə fiqh elmi üzrə təhsilini bitirib vətənə qayıtmış, sonra görkəmli din alimi və böyük ədib kimi Tehrana köçmüş, ömrünün sonuna kimi "Mədrəseyi-Münriyyə"də tədris işi, ədəbi yaradıcılıqla məşğul olmuşdur.

M.Hidəci Tehranda yaşadığı dövrdə burada yaşamaqdan bezmiş, qəriblikdən, mühitin ağırlığından şikayətlənmiş doğma yurdunu və ailəsini sonsuz məhəbbət və həsrətlə xatırlamışdır.

*Mənəm ki, valehü matam, həmişə sərgərdan,*
*Mənim muradıma hərgiz dolanmadı dövran.*
*Açıldı börkümə Hidəci də möhrə, bu əyyam*
*Olub vətən mənə darülxilafeyi – Tehran.*
*İnanın əldən alıb gərdişi-zəmanə, məni –*
*Bu şəhrə saldı, bu şəhri Xuda edə viran [2, s.158].*

Düzgünlüyü, doğruçuluğu, təmizliyi insanın ləyaqəti hesab edən M.Hidəci yaşadığı zamanda düz adamların, düzlüyün azlığından şikayətlənmişdir:

*Bu gün sözü, özü düzgün əgər tapılsa, mənəm,*
*Bu söz deyil, mən özüm bu sözümdə birhanəm.*
*Mənəm ki, mehrü - vəfa məsləkimdə salarəm,*
*Mənəm ki, sidqü - səfa kişvərində sultanəm [3, s.570].*

Şair, eyni zamanda müsəlmanların geriliyindən, zəif və didərgin olmalarından, kafirlərin isə güclənməsindən kədərlənir, bu hisslərini də şeirə köçürürdü.

M.Hidəci həkim və şair olmaqla bərabər, el dərdinə yanan alim olmuş, məktəb vasitəsilə müxtəlif biliklərin təbliğinə xüsusi səy göstərmişdir. O, xalq içərisində böyük hörmət sahibi və sevilən olmuşdur. Gəncliyində "Müğənni", sonralar "Hidəci" təxəllüsünü işlətmiş şair Azərbaycan, ərəb və fars dillərində şeir, fəlsəfi, ictimai və dini əsərlər yazmışdır. Onun əsərlərində ibrətamiz, müdrik və tərbiyəvi fikirlər güclü olmuşdur:

*Qıl özünə Xızrı bu çöldə dəlil,*
*Hər nə deyər, hər nə edər səbr qıl.*

*Əqlinə qurşanma, itirmə özün,*
*Əql yoxun, cəhl tutubdur gözün [2, s.144].*

Məhəmməd Hidəci, Mirzə Kazım Qazi Əsgərzadə Mətlə, Mirzə Əlixan Ləli əski formalarda yeni ideyalar ifadə etməklə bərabər, o vaxta qədər cənublu şairlərin yaradıcılığında az işlənən öyüd, nəsihət, təmsil, mənzum hekayə, poema kimi bədii janrlara müraciət etmişlər.

XIX əsrin sonlarında poeziya xalq həyatına yaxınlaşdıqca, maarifçilik ideyaları gücləndikcə öyüd və nəsihətlərə ehtiyac artmışdır. M.Hidəcinin yaradıcılığında bu cəhət daha qabarıq nəzərə çarpmışdır.

M.Hidəci oğluna müraciətlə başlanan "Atanın oğluna nəsihəti" şeirində üzünü bütün gənclərə tutmuş və arzularını ifadə etmişdir. O, həyatda qarşılaşdığı acı və şirin hadisələrdən nəticə çıxarmış, əsl həyat və yaşayış yolunu oğluna nişan vermişdir. Şair əxlaq normalarına yiyələnmək, məzlumların halına yanmaq, ədəb və mərifət sahibi olmaq kimi insani keyfiyyətləri tövsiyə etmişdir:

*Mən imtahanü təcrübə etdim, hər ol oğul,*
*Oldu ata-anasına ağ, tapmadı çörək.*
*Danəyə ol qulam, sənə örgədib ədəb,*
*Ustadə qulluq eylə, veribdir sənə əmək.*
*Hörmət elə qocaya, qonağı əziz tut,*
*Əl tut balam, yıxılmışa, ol acizə kömək.*
*Anla sözü danış, demə hər yerdə hər sözü,*
*Əndazə qoy danışmağa, tut ağzını cəhək [2, s.153].*

M.Hidəci insanın, xüsusən gəncliyin tərbiyəsinə böyük əhəmiyyət vermiş, tərbiyənin nümunəvi formalarını aşılamışdır:

*Uşağı pis öyrətmə, öydürmə çox,*
*Hər ol kim uşağın öyür, əqli yox.*
*Hər ol kəs ki, öz oğlunu öydürür,*
*Atasın öləndən sonra söydürür [2, s.35].*

"XIX əsrin sonlarında cənublu şairlərin öyüd və nəsihətləri üçün səciyyəvi xüsusiyyətlərindən biri təbliğ edilən əxlaqi fikrin bədii təsir dairəsini artırmaq, onu oxucunun ünvanına yetişməsini sürətləndirmək məqsədilə təbliği vacib olan ideyanın həyatdan, xalq və klassik ədəbiyyatdan alınmış hekayələr vasitəsilə əyaniləşdirməkdən ibarətdir. Bu baxımdan Mirzə Mehdi Şükuhi və Məhəmməd Hidəci yaradıcılığı maraqlı xüsusiyyətlərə malikdir" [4, s.394].

M.Hidəcinin təmsil şəklində də gözəl öyüd, nəsihət xarakterli şeirləri vardır. "Ləklək və tülkü" belə şeirlərdəndir. Şairin "Əfsanə" poemasında (mükalimə) da ibrətamiz, müdrik və tərbiyəvi fikirlər, obrazlılıq güclüdür.

M.Hidəci tamahkarlığı insanda pis keyfiyyət kimi tənqid edirdi. Bundan qurtarmaq üçün insanlar nəfslərini saxlamalı, tamahkarlıq etməməlidirlər:

*Nəfsi-şərir noxtasını salma boynuna,*
*İstər şərarət eyləyə, vur başına kəsək.*
*Dünyaya uyma, zahirinə baxma, bu qarı –*
*Aldatmağa səni, üzünə eyləyib bəzək [3, s.568].*

İranın müstəbid siyasi rejimi şahlıq üsuli-idarəsinin əhalinin mənafeyinə zidd qanunları, insanların hüquqlarının pozulması, ölkənin xarabazara çevrilməsi M.Hidəci şeirində daha qabarıq

şəkildə özünü göstərirdi. Şairin “Olsun” rədifli qəzəlində Cənubi Azərbaycan mühitinin mənzərəsi daha aydın əks olunmuşdur. Ölkə kədərli vəziyyətdə mürgüləyir, heç kimin üzü gülmür, hamı dərd-qəm içindədir. Zülm, maddi çətinlik, təqib və təzyiqlər insanları bir-birindən uzaqlaşdırıb. Biganəlik artıb, adamlar bir-birinin qayğısına qalmır:

*Könlüm tutulubdur, biri yox dil bilən olsun,*
*Aç bu qapını, mənzilə şayəd gələn olsun.*
*Bəs ağladım, oldu ciyərim qan, yetir Allah,*
*Bir kəs gözümün yaşını üzdən silən olsun [2, s.159].*

Xalqın dərdlərini ustalıqla ümumiləşdirən M.Hidəci onları yalnız təsvir etmir, həm də etiraz səsini ucaldır. Bu səs getdikcə qüvvətlənir və üsyana çevrilir. Şair Nəsrəddin şahı ölkədə baş verən bəla və səfalətlərin səbəbkarı kimi ittiham edir. Nəsrəddin şah üsuli-idarəsinin dağılmalı olduğu haqqında fikir söyləyir:

*O şah ki, düşmənə satdı rəiyyəti, gördün,*
*Neçə əcəl oxuna sinəsi düçar gələr!*
*Dolanma boş, babacan, get özün üçün iş tap,*
*Demə mənə ki, bəyəm, kəsbü – kar ar gələr [3, s.574].*

M.Hidəci sadə, bəzək-düzəksiz ömür yaşamışdır. O, bütün ömrünü qənaətlə başa vurmuş, məğrur, başıuca yaşamış və heç kəsə mədhiyyə yazmamış, heç kəsi təhqir etməmişdir.

Hidəcinin “Divanı”na əlavə edilmiş “Vəsiyyətnamə”si onun olduqca yoxsul yaşamasına mühüm sənəddir. O, vəfat edərkən kitab və paltardan başqa gözəçarpan bir şeyi olmamışdır. Əl ilə yazdığı “Şeirlər” kitabının yaxın dostu Məhəmməd Hüseyn Hidəciyə verilməsini tapşırmış, yerdə qalan kitablarını “Müniriyyə” mədrəsəsinə vəqf etmişdir.

**Nəticə.** M.Hidəci gözəl qəzəl, şeir, ibrətamiz hekayələr və məsnəvilər müəllifidir. Onun fars dilində qələmə aldığı nəsri fəlsəfi problemlərə həsr edilmişdir. Şairin lirikası ədalətsizliyin və riyakarlığın tənqidi, insanı paklaşdıran məhəbbətin tərənnümüdür. Onun bir çox əsərlərində dini əxlaqın tərənnümü mühüm yer tutur.

Xalq həyatını incəliklərinə qədər təsvir edən M.Hidəci təkcə Cənubi Azərbaycanda deyil, bütün İranda tanınmışdır. O, 1928-ci ildə Tehranda vəfat etmişdir. Əli Həştrudi onun hicri tarixlə 1346 (1927), Cəfər Xəndan isə 1352 (1933)-ci ildə dünyasını dəyişdiyini göstərmişlər.

## ƏDƏBİYYAT

1. Bağırzadə S.B. Hidəcinin həyat və yaradıcılığı haqqında. Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası, 1968, say 3.
2. Məhəmməd Hidəci. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. Dörd cilldə, I cild. Tərt. ed. M.Mənafi, Z.Əkbərov, R.Qasımova. B., “Elm”, 1981.
3. Məhəmməd Hidəci. XIX əsr Azərbaycan ədəbiyyatı (Poeziya). Tərt. ed. S.Əhmədova, T.Əhmədov. B., “Nurlar”, 2009.
4. Məmmədov X. XIX əsrin sonunda Cənubi Azərbaycanda maarifçi ədəbiyyat. Cənubi Azərbaycan ədəbiyyatı tarixi. İki cilddə, I cild (XIX) əsr. B., “Qanun”, 2009.